**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**"Naxçıvan Muxtar Respublikasında işaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 105 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasında işaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 105 nömrəli Qərarı ləğv edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "29" iyul 2024-cü il

№ 54